# Xələflinin zəlzələ ağrıları,

## *yaxud, "yarı qəm, yarı qürur dastanı" haqqında düşüncələr*



***Şəddat CƏFƏROV,***
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,***
***Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,***
***Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Fevral ayının 6-da Türkiyədə baş verən zəlzələ demək olar ki, bəşəri idealları uca tutan hər kəsi silkələdi. Türkiyəyə doğma olanı da, Türkiyəyə yad olanı da. Ancaq birmənalı deyərdim ki, bu zəlzələnin ağrıları daha çox Azərbaycanın qəlbindən keçdi.

Bu zəlzələ taleyin çox ağır sınağı idi. Çünki Türkiyə təkcə mövcud olduğu ərazidə deyil, demək olar ki, dünyanın qlobal məsələlərinin həll edildiyi böyük siyasi mərkəzlərdə söz sahibidir. Super güc dövlətləri də istəyib-istəmədiklərindən asılı olmayaraq, Türkiyə ilə hesablaşmalı olurlar. Bu da, əlbəttə, super güclərin qısqanclığına, dözümsüzlüyünə şərait yaradır. Şərqdə baş verən hadisələrə Türkiyənin birmənalı münasibəti, ağa ağ, qaraya qara deməsi müharibə ocaqları yaradanların xoşuna gəlməzdi. İndi belə bir məqamda Türkiyənin təbii fəlakətlə üzləşməsi bu nəhəng dövlətin sütunlarını laxlatmaq istəyində olanları şirnikdirdi desəm, səhv etmərəm. Türkiyə Suriyadan gələn böyük qaçqın axınına qucaq açdı. Azərbaycanı işğal etmiş Ermənistanı qətiyyətlə ədalətə səslədi. Ən başlıcası, Ermənistanın işğalçı qüvvələrini müdafiə edənləri haqqa, həqiqətə səslədi. Əgər belə demək mümkünsə, Ermənistan siyasi-hərbi dəstəkdən məhrum edildi. İran, Fransa kimi Azərbaycana qarşı açıq-aşkar qərəz siyasəti yeridənlərə elə sərt təpkilər göstərildi ki, onlar Azərbaycanın haqq işi uğrunda mübarizəyə qalxmasına mane ola bilmədilər. Birmənalı şəkildə demək lazımdır ki, Rusiya da fəal hərbi müdaxilədən təcrid edildi. Nəticədə Azərbaycan öz torpaqlarını heç bir dövlətdən hərbi güc almadan işğaldan xilas etdi.

Türkiyənin prezidenti azad olunmuş Şuşaya cəsarətlə səfər etdi. Burada məşhur Şuşa bəyannaməsi qəbul olundu. Zənnimcə, bütün bunların hamısı Türkiyənin Azərbaycana münasibətinin güzgü kimi görünən tərəfləridir.

Belə bir şəraitdə Azərbaycanın Türkiyə üçün sevgili münasibəti qardaş ağrısına doğmalıqla göstərilən bir münasibət təzahürü kimi qəbul olunmalıdır.

Fəlakət miqyassızdır. Əlli mindən çox ölümü deməkdir. Şəhərlərin yerlə-yeksan edilməsi, milyonlarla insanın evsiz-eşiksiz qalması deməkdir. Belə bir ağır fəlakət qarşısında ağır duruma düşən Türkiyəni Azərbaycan necə tək buraxa bilər. Ən başlıcası, Ərdoğan möhtəşəm Turan ideyasının carçısı və reallaşması üçün bütün gücü ilə çalışan bir liderdir. O, Turanın mərkəzindən keçən elə Turan yolunun Zəngəzurla bağlı hissəsinin açılması üçün bütün qətiyyəti ilə mübarizə aparır. Bir sözlə biz mənafeyimizə uyğun gələn bütün məsələlərdə Ərdoğanı öz yanımızda görürük.

Azərbaycan xalqının Ərdoğana və Türkiyəyə sevgisini ehtiva edən çıxışları, mənəvi və maddi yardımları gözardına vurmaq olmaz. Bütün bunlar Azərbaycanın doğma qardaşına ödədiyi borc kimi qəbul olunmalıdır. Zəlzələ günlərində siravi adamların Türkiyəyə yardım əlini uzatması, fövqəladə güc qurumunun xilasetmə işlərinə qoşulması, demək olar ki, Türkiyənin ağrısını hər bir insanın öz canında hiss etməsini görmək sözün həqiqi mənasında çox qürurverici hisslər doğururdu.

Bütün bunlar öz yerində. Bir əsas məsələ də var ki, söz-sənət adamları da Türkiyənin böyük fəlakətinə seyirçi qalmadılar. Şairlər bu dəhşətli faciənin ağrılarını sözə çevirdilər. Sənətin dili ilə qardaşlıq yanğılarını ifadə etməyə çalışdılar. Bu sırada Əli Rza Xələflinin ədəbi-mənəvi mühitimizdə çox böyük əks-səda doğuran "Türkiyənin zəlzələ ağrıları" əsərini ayrıca qeyd etmək lazımdır.

Mən artıq bu əsərin bədii siqlətini, mənəvi təsir gücünü göstərən professor Təyyar Salamoğlunun "Sözün fatehi, könüllərin fatehi haqqında" adlı ədəbi qeydlər haqqında fikrimi demişəm. Ancaq təəssüratım o qədər çox və zəngindir ki, bu əsər haqqında düşüncələrimi axıracan yazmaq qərarına gəldim.

Əvvəla, onu deyim ki, müəllif əsəri Türkiyə zəlzələsində həlak olanların xatirəsinə həsr edib. Bu, insanlığın ədəbi yaşarlığına, insan faciəsinə ağrı ilə yanaşmağın özünə bir ədəbi abidədir. Elə həm də deyərdim ki, bu əsər ölməz ruhu ilə təsdiq edir ki, əbədi abidədir.

Müəllifin "Yarı qəm, yarı qürur dastanı" adlandırdığı əsəri Ərdoğana və Türkiyəyə təskinlik üçün qələmə aldığını epiqraf əvəzi olaraq qeyd edir. Bu əsərin mənəvi potensialı o qədər geniş, təsir gücü o qədər əhatəlidir ki, istər-istəməz hər misra canlı olaraq qəlbləri fəth edir. İnsanın ruhunu bütün varlığı ilə səfərbərliyə alır.

Müəllif kitabın üz qabığında söz haqqında kiçikhəcmli "Söz" adlı essesini də oxucuya çatdırır. O, bununla belə bir fikri ehtiva edir ki, söz ehtiva etdiyi gücü ilə heç də digər mənəvi və maddi yardımlardan aşağı deyil. Sözün təsiri ilə insanları həqiqət üçün səfərbər etmək olar. Sözün təsiri ilə fürsətcillərə dağıdıcı zərbə vurmaq olar. Sözlə həqiqət zirvələrini fəth etmək olar. Düşünürəm ki, bir neçə cümləlik həmin esseni məhz kitabın təsir gücünü özündə ehtiva etdiyi üçün oxuculara da çatdırmaq yerinə düşərdi:

**"Söz insan dünyasının mənəvi mənzərəsidir - gözəlliyi özünə çəkmiş mənzərəsi.**

**Söz insanın fikir-düşüncə aləminə yoldur.**

**Söz adlı iksirin gücünə insanların qəlbində məhəbbət ağacı bitir.**

**Sözdən su içir həyat ağacı - tumurcuqları yarpağa, çiçəyə dönür, bar-bəhər gətirir.**

**Söz səslə eşidilir, söz gözlərdən də oxunur - bütün hallarda körpü sözdür.**

**Söz doğuluş olduğu kimi, həm də geriyədönməz hərəkət, sonsuzluqdakı labüd sonluqdur.**

**Söz bütün ağrıların ən üstün dərmanıdır.**

**Söz türkün silahıdır; türkün sözü - qılıncın özü".**

Müəllif sözün həqiqi mənasında o qədər yüksək enerji ilə səfərbər olunur ki, az qala, türk-Turan tarixini bütöv bir mənzərə kimi gözünün önünə gətirir. Doğudan batıyacan türk-Turan yolunun tarixi taleyi elə ülgülənir ki, şairin ruhundan dağ çayı kimi çağlayıb keçir.

Onu da qeyd edim ki, müəllif poemanın əvvəlində dağılmış Türkiyə şəhərlərini xatırlayır. Böyük faciənin miqyası haqqında danışarkən insanlığın yaşadığı faciəni bir bölgənin, bir ərazinin yox, bütövlükdə bəşərin faciəsi kimi xarakterizə edir. Hətta azərbaycanlıların Xoy şəhərindəki zəlzələ ağrılarını da unutmur. Tarixin insanlığa şərəf olan zamanları gözünün önündən keçir. O, Azərbaycanın doğması, bağrının badaşı olan Ərdoğana "Sultanım" deyə müraciət edir:

*Sultanım, gəldi gedər qovğalar səndən ötər,*
*Turandan ümmanlarca sevdalar sənə yetər...*

*Malatya, Xatay bütün... oyanar boy göstərər,*
*Qalxar Kahramanmaraş, təzədən soy göstərər*

*Dirilər Qaziyantəp, igid qazilər yurdu,*
*Doğudan Batıyacan ulayar Türkün qurdu...*

*Dağılmış Xoy şəhəri sinəmdə yara yara,*
*Kök atır yağıların niyyəti qara qara...*

*Araz Əhməd oğlunun sözünün qanı süzür,*
*Fələkdən gələn bəla qan alır, canı üzür...*

*Ərzurumun gədiyi Kərəm keçən yollardır,*
*Bürəm bürəm qəm yeyib, dərdi içən yollardır...*

Burada hər ifadənin, hər sözün öz çəkisi olduğu kimi öz ağrısı da var. İstər-istəməz Azərbaycan xalqının mənəvi yaddaşındakı söz abidələri də xəyalımızda canlanır. Əsli və Kərəm dastanından məşhur epizod gözlərimizin önünə gəlir. Kərəm öz sevgilisinin arxasınca taleyin və təbiətin sınaqlarına dözməli olur. Qarlı-çovğunlu Ərzurumdan keçməli olur.

**Ərzurumun gədiyinə varanda,**
**Onda gördüm bürəm-bürəm qar gəlir.**
**Lələ dedi gəl qayıdaq bu yoldan,**
**Ziyadxan oğluyam dedim, ar gəlir.**

Xalq bir neçə misranın içərisində əqidəsinə doğru bir gəncin necə inadla yoluna davam etmək istəyini bu misralarda böyük həyəcanla izləyir. Mənə elə gəldi ki, Türkiyənin fəlakətinə can atan hər bir Azərbaycanlının obrazını da elə Kərəmin ilahi eşq yolunda iztirablarla öz istəyinə can atması ilə müqayisə etmək olar.

Müəllif nəyə görə Ərdoğanı idealizə edir? Müəllif nə üçün Türkiyəni bu qədər doğmalıqla əzizləyir. Çünki artıq əvvəldə qeyd etdiyimiz kimi Türkiyə bizim həqiqətimiz uğrunda elə bizim özümüz qədər özünü səfərbər etdi. Biz Ərdoğanın timsalında Ali Baş Komandanımızın yanında böyük gücü gördük.

Sözün həqiqi mənasında biz Ərdoğanın və Türkiyənin timsalında hiss etdik ki, biz bir millət iki dövlətik.

Onu da qeyd edim ki, Ərdoğanın bu günlərdə seçkisi olacaq. Türkiyə dövlətinin əzəmətinə xəlil gətirəcək vədlərlə çıxış edən rəqiblər Azərbaycan və Türkiyə birliyinə kəskin zərbələr vurmağa çalışırlar. Hətta enerji daşıyıcısını İrandan keçirməklə Azərbaycanı bu vacib həyat yolundan məhrum etmək istəyir, Zəngəzur dəhlizinin açılmasına sərt maneə yaratmağa çalışırlar. Hətta onlar Qarabağa qarşı qərəzli mövqelərini də bildirməkdən çəkinmirlər. Bu mənada müəllifin Ərdoğana "Sultanım" deyə müraiət etməsi bizim ona, onun da bizə nə qədər doğma olduğuna işarədir:

*Sultanım, çətin gündə səni gördük, tanıdıq,*
*Sevgimizin adına çələng hördük, tanıdıq.*

*Qarabağın dağları qürur duydu adından,*
*Güc aldı, təpər aldı dönməyən inadından.*

*Ulutürkün səddində basılmaz bir qalasan,*
*Qardaşlığa ziyarət, inama pir qalasan.*

*Türkiyənin önündə Turana yol açırsan,*
*Alp Ər Tonqa ruhuna qəlbindən nur saçırsan.*

*Bilirik, Ərdoğansan - Bilgə Xaqan gücündə,*
*Qənim üstə ulayan Bozqurdsan qan gücündə.*

*Yanında qürurludur müdrik Dövlət Baxçalı,*
*Tonyukuk timsalında sözü hikmət, axçalı.*

*Sözünə ağız büzüb bilməzdən gələnlərə,*
*Binəli Yıldırım da cavabdır gülənlərə.*

Müəllif burada Binəli Yıldırımın, Dövlət Bağçalının adlarını təsadüfi xatırlatmır. Ərdoğanın mübarizələrinə ruh verən, güc verən, ona böyük yolunda dayaq olan, sədaqətli qüvvələrin hamısını bu adlarda rəmzləşdirir. Ən əsası budur ki, müəllif Ərdoğanı tarixi türk xaqanları ilə müqayisə edir. Əfsanəvi Alp ər Tonqanı yada salmaqla Turan möhtəşəmliyini sözünün mərkəzinə gətirir.

Doğudan boy göstərən Bilgə xaqanın, Metenin, Kültiginin... adları türk tarixini bilənlərin dilinin əzbəridir. Onlar təkcə fiziki güclə yox, türk torpaqları uğrunda həm də ağılları ilə vuruşurdulr. Bu yerdə müdrik Tonyukukun adını xatırlamaq çox zəngin təəssürat yaradır. Ağlın, idrakın, doğru-düzgün məsləhətin nəyə qadir olduğunu diqqətə çatdırır.

Bu yerdə müəllif Azərbaycanın Ali Baş Komandanının adını dilə gətirməsi hər bir oxucunun qəlbində xüsusi qürur hissi doğururş Biz qəlbən, ruhən Ali Baş Komandanın yanında oluruq. Onunla birgə Ərdoğana dayaq durmaq istəyirik.

Doğrudur, Azərbaycanın da problemləri az deyil. Erməni vandalları tərəfindən xarabazarlığa çevrilmiş şəhərlərimiz, kəndlərimiz bərpa olunmalıdır. Az qala bir qərinə yerinə, yurduna həsrət olan insanlar doğma yurdlarına qayıtmalıdırlar. Amma belə bir məqamda bütün çətinliklərə baxmayaraq, Azərbaycan dövləti fəlakət nəticəsində dağılmış Türkiyənin bərpa olunmaısna qardaşlıq yardımını əsirgəməyəcəyini bildirdi:

*Azərbaycan adından danışan baş komandan,*
*Sevgimizi çatdırır bir könüldən, bir candan.*

*Sultanım, tək qoymarıq səni kədər əlində,*
*Ağrı çəkir canımız qəza, qədər əlində.*

Bundan sonra müəllif təbii fəlakətin yaratdığı mənzərəyə diqqəti yönəldir. Onun sözlə yaratdığı mənzərə nə qədər sarsıdıcı olsa da, oxucunun mənəvi iqtidarını dağıtmır. Onu bu fəlakətli mənzərəyə diqqətlə baxmağa sövq edir. Bununla da insanlığın qarşılaşacağı bəlalarda bir-birinə doğmalıqla yanaşmanın nə demək olduğunu poetik sözün gücü ilə ifadə edir.

*(Davamı 11-ci səhifədə)*

## *yaxud, "yarı qəm, yarı qürur dastanı" haqqında düşüncələr*

*(Əvvəli 10-cu səhifədə)*

Müəllif fəlakət tablosunun, fəlakətin ağrı-acılarının bu tabloda görünən tərəflərini sözün rəngləri ilə çəkir. Hətta nə qədər istedadla, nə qədər mənəvi güclə və həm də kifayət qədər ağrı ilə bu tablonu yaratsa da, həqiqi mənzərəni çəkməkdə sözünün acizliyini də etiraf edir. Bu da onu göstərir ki, müəllif mənzərəsinin bütün mahiyyətinə vara bilir. Bunun dəhşətlərini bütün varlığı ilə hiss edir və ona elə gəlir ki, bu mənzərəni sözün gücünə çəkmək mümkünsüzdür. Amma o, belə acı etirafla danışsa da, hiss olunur ki, tanrı ona sonsuz mənəvi güc bəxş edib və bu gücün sayəsində fəlakət mənzərəsini bütün acılıqları ilə çəkib bizə göstərə bilir. Mən yəqin ki, ayrı-ayrı hissələri yazının arasına gətirməklə sadəcə əsərin bədii məziyyətlərindən danışmaq istəmədiyimi də etiraf edirəm. Ona görə bədii parçalara müraciət edirəm ki, oxucu insanlığın üz-üzə gəldiyi bu bəlanın dəhşətini görsün və heç vaxt unutmasın. Axı təbiət kiməsə güzəşt etmir. Təbiət məqamına görə, yerinə görə hər hansı bir şəxs öz əməlində səhvə yol veribsə, onu qədərincə, bəlkə də qədərindən artıq cəzalandıra da bilir. Elə ona görə də çox istərdim ki, insanlar müəllifin yaratdığı fəlakət mənzərəsini diqqətlə izləsinlər və onu heç vaxt unutmasınlar:

*Gözlərimin önündə fəlakət tablosu var,*
*Qəlbimdə yara-yara həlakət tablosu var.*

*Neyləyim indi axı, qəm kəsib bənd-bərəni,*
*Sözümün gücü çatmaz çəkəm bu mənzərəni.*

*Sığındım qələmimə təbim ağlar olsa da,*
*Sinəm üstə göynəyən qəmim dağlar olsa da.*

*Başımda fikirlərin şimşəyi çaxıb keçir,*
*Ayağımın altından yer qaçır, axıb keçir.*

*Sözümün güzgüsündə nə gördüm, nəyi yazdım,*
*Gələcək özü görsün dərdi, göynəyi yazdım.*

*Yer yarıldı dərindən qalxdı oyandı bəla,*
*Parçalandı göy üzü dərdə boyandı bəla...*

*Yeri, göyü titrədən dəhşətli zəlzələdən,*
*Dağlar əsdi, titrədi bu qorxunc vəlvələdən.*

*Axarını dəyişdi, bulaqlar da ağladı,*
*Dağların sinəsində çatlar yara bağladı.*

*Təmkinini itirmiş yerin özü çırpınır,*
*Fələyin əllərində dağı, düzü çırpınır.*

*Çaxır ölüm şimşəyi hər canlının başında,*
*Qəlbimiz Türkiyənin torpağında, daşında.*

*Əzəmətli saraylar aciz-aciz diz çökür,*
*Fikirlər dilə gəlmir, ağlar-ağlar söz çökür.*

*Allahın qədərindən çətindir qaçmaq olmaz,*
*Çat versə su bardağı içində damla qalmaz.*

*İnsanların naləsi ərşə qalxdı, ucaldı,*
*Türkiyəmiz ağrıdan bircə gündə qocaldı.*

Qanadlı misralar, ilhamlı duyğular qəm-kədər üstündə köklənsə də, başdan-başa Türkiyəyə sevgi hissləri aşılayır, daha doğrusu, bizim sevgimizi, bizim Türkiyəyə olan məhəbbətimizi özündə ehtiva edir. Məhz bu qarşısıalınmaz sevgi duyğuları ilə Türkiyə ilə bizim aramızdakı bağlılığın qırılmazlığını, münasibətlərdə doğmalığı tərənnüm edir.

Bəli, təbii fəlakətin qarşısında saraylar acizdir. İnsan gücsüzdür. Hətta müəllif öz sözünün də bu mənzərə qarşısında gücsüzlüyünü görür və sözün ağrıdan necə çökdüyünü elə zəlzələdən çökən sarayların fəlakət mənzərəsi ilə müqayisədə dilə gətirir. Bu elə bir fəlakətdir ki, bulaqları da ağladır. Dağları da sarsıdır. Bölünən, parçalanan dağları. Bu dəhşətlərin qarşısında insan necə sarsılmaya bilər?! Amma müəllif tarixə müraciətlə bəzi məqamları da yada salır. Qədim şərqdə məşhur Hammurapi adında hökmdar olub. O, sarayları hansı memara tikdirirdisə, bunu nəzarətdə saxlayırdı. Hər hansı bir zədədən hansı memarın tikdiyi saray dağılırdısa, onda həmin memar hökmdarın qəzəbi qarşısında cavab verməli olurdu. Zənnimcə, müəllif burada çox vacib olan bir məsələyə toxunur. O, özünün bütün varlığı ilə çağlayıb gələn sözündə belə bir həqiqəti qabarıq göstərir ki, hər kəs öz işində, əməlində məsuliyyət daşımalıdır. Məsuliyyəti olmayan şəxsin əməlindən başqaları ziyan çəkər. Necə ki, Türkiyə zəlzələsində göründüyü kimi.

Müəllif xüsusi bir hiss ilə vacib olan məqamlara toxunur. Ərdoğanın seçkidə mövqeyini sarsıtmaq üçün bəzi namərd siyasətçiləri də diqqətdən kənarda qoymur. Onlar belə bir imkandan namərdliklə yararlanmağa çalışırlar. Hətta təbii fəlakətdə də Ərdoğanı suçlamaq niyyətində olduqlarını gizlətmirlər. Müəllif bütün bu məqamlara özünəxas həssaslıqla güzgü tutur. Ən başlıcası, reallığa söykənən ittihamlar irəli sürür. Onun bütün sərt tələblərinin mahiyyətində bu durur ki, müasir Türkiyənin qüdrətini qorumaq hər cür iddialardan üstündür. Məhz Ərdoğanı zəlzələnin acı nəticələri ilə ləkələmək, aşağılamaq ən azı ədalətsizlikdir.

Doğrudur, mənzərə çox acıdır. Acı mənzərənin özü kifayət qədər həqiqətləri göstərmək üçün müəllifə imkan yaradır:

*Fidan-fidan körpəyə dərd bələdin, İlahi,*
*Neçə-neçə qönçəni qəhr elədin, İlahi.*

*Dağıntılar altında zarıyan, inləyən var,*
*Əlacsızlıq içində çırpınan, ünləyən var.*

*Qoca Hammurapinin qanunu yada düşər,*
*İnsanlığa kəc baxan qəzəbə, oda düşər.*

*Kim tikib bu evləri, haqq-hesabı sorular,*
*Tapılar yağmaçılar, haqq divanı qurular.*

*Siyasilər fürsəti yelə vermək istəmir,*
*Fürsətçilər arada haqqı görmək istəmir.*

*Yaddaşda adı qalan fəlakətlər çox olub,*
*Çox mənəmlər sovrulub, yer üzündən yox olub.*

Bu misralarda biz bir ibrət notları da hiss edirik. Müəllif iddiaların çürüklüyünü, qərəzliliyini, müasir qüdrətli Türkiyəyə kinin, kidurətin olduğunu da açıqlayır. Əlbəttə, saxtakar inşaatçıların cəzasız qalmayacağına da işarə vurur. Bununla da baş verən zəlzələnin dağıdıcı nəticələrini insanlar üçün ibrət güzgüsünə çevirir. Yəni hər kəs çalışmalıdır ki, öz əməlində vicdanlı münasibəti unutmasın. Əks təqdirdə, təbiətin qisası yaman olur.

Tarixən Azərbaycan çox dəhşətli zəlzələlərin şahidi olub. Gəncə, Şamaxı, Təbriz dəfələrlə dağıdıcı zəlzələlərin qurbanına çevrilib. Hətta böyük Nizami də dəhşətli Gəncə zəlzələsini böyük ağrı ilə təsvir edib. Görünür, müəllif zəlzələ fəlakətinin dağıdıcı mahiyyətinə diqqət göstərərkən bəzi məqamlara münasibətini bildirməkdən çəkinmir.

Birincisi, insanlar nəyə görə təbii fəlakətdən istifadə ilə siyasi xal qazanmağa cəhd edirlər. Axı, təbii fəlakət kiminsə istəyi ilə baş vermir. Onun nəticələri ağır, yaxud da qeyri-ağır olsa belə, bunda siyasi məqsədlərlə istifadə etmək ən azı mənəvi əxlaqsızlıqdır.

İkincisi, təbii fəlakət baş verərkən insanlar bütün fikir ayrılıqlarına baxmayaraq mənəvi birlik nümayiş etdirsinlər. Yalnız güclü mənəvi birliklə insanlar acı nəticələrindən daha tez xilas ola bilərlər.

Görünür, müəllif ən vacib amilləri diqqətlə təhlil edib Azərbaycanın zəlzələ tarixi ilə bağlı poetik düşüncələrinə də meydan verir. Bu düşüncələr həm də günümüz üçün xüsusi bir xəbərdarlıq siqnalı kimi səslənir:

*Zamanında Nizami görün nədən danışıb,*
*Səmaları titrədən zəlzələdən danışıb.*

*Allah özü acizdir, hesabı fələk sayıb,*
*Gəncəni alt-üst qoyub, Kəpəzi parçalayıb.*

*Əvəzində Göygölü güzgü verib insana,*
*«İbrətlə bax, ey könlüm» bu çətinə, asana.*

*Təbrizdə, Şamaxıda qızıl öküz neyləyib;*
*Zamanın yaddaşına tarix yazıb, əyləyib.*

*Tarixdə olanları dərs bilib, əxz eyləyək,*
*Ürəkdəki yaranı təskinliyə bələyək.*

*Sultanım, qəm eləmə, qəhər səni boğsa da,*
*İftiralar, böhtanlar yağış kimi yağsa da.*

*Biz səninlə gedirik, Ulu Turan dağına,*
*Sonuncu dənizəcən türkü soran dağına.*

*Ümidlərdə güllənən qardaşlığın yolu var,*
*İnamlara açılan türkün sevgi qolu var.*

Müəllif poetik düşüncələrində Kəpəzi xatırlayır, Gəncəni altüst edən zəlzələni yaddaşa gətirir. Hətta Xəqanidən məşhur ifadələri diqqətə çəkməklə bir ibrət güzgüsü yaradır. Şamaxı, Təbriz zəlzələsinin faciələrini bir daha diqqətimizin önünə gətirir. Bütün bunlar sənətkarın təkcə Türkiyə ilə yox, həm də insanlıqla bir yerdə olduğuna dəlalət edir. Əsas odur ki, özünün ilhamlı duyğuları ilə belə bir fikri təlqin edir ki, gərək ağır dərdlərlə qarşılaşanda insanlar bir-birinə arxa çevirməsinlər. Böyük hisslər, böyük duyğular saflığa güvənərək, ən başlıcası, insanlığa güvənərək birlik yaratsınlar.

Müəllif bir daha "Sultanım" deyə Ərdoğana müraciət edərək onun qəmlərinə, qəhərlərinə şərik olduğunu bildirir. Ən başlıcası, böyük Turan dağına onunla birgə gedəcəyimizi bəyan edir.

Əsas odur ki, müəllif inamı, dostluqda sədaqəti, qardaşlıqda dəyanəti tərənnüm edir. Onun tükənməyən, ilhamlı duyğuları insanlığın gözləri önündə möhtəşəm mənzərə açır. Bununla hər kəsə çatdırır ki, əgər insanlıq bəşəri dəyərlərə güvənsə, inama söykənsə, ən dəhşətli fəlakətin də qarşısında sarsılmaya bilər. Əsərdə elə kövrək məqamlar var ki, adam oxuduqca bəlanın ən ağrılı məqamına qovuşur. İnsanlığın düçar olduğu fəlakətin acısını öz qanında, canında yaşayır. Belə bir məqamda sözün qüdrəti nəyə qadir olduğunu bir daha göstərir.

*Sultanım, biz bilirik, dağlar dağdır sinəndə,*
*Qəlbin oda tutulur, bircə ümid sönəndə.*

*Sevinirsən, kiminsə "canı var" sorağına,*
*İşığından pay çatır hər ümid çırağına.*

*Bir körpə xilas olur ölümün pəncəsindən,*
*Bir başqa gül üzülür təzə-tər qönçəsindən.*

*Acısı sinə yaxır, "su" deyə inləyənin,*
*Ümidi solub gedir sükutu dinləyənin.*

*Azərbaycan bu dərdin ocağında közlənir,*
*Türkiyənin yanğısı varlığımda sözlənir.*

*Minlərlə könüllümüz aparır can yerinə,*
*Qəlbini məlhəm etsin yaralı qan yerinə.*

Azərbaycanın tarixi dəstəyini özündə əks etdirən adamların sevgisində, məhəbbətində görür. Bir nəfər sıradan şəxsin Naxçıvandan öz maşını ilə Türkiyəyə yardım aparması hadisəsi milyonlarla insanın duyularına təsir etdi. Yaxud, Azərbaycanın fövqəladə qüvvələrinin fədakarlıqla çalışmaları, onlarca insanın həyatını xilas etmələri yəqin ki, heç vaxt unudulmaz. Bütün bunları Azərbaycan xalqı əvəzsiz qardaşlıq yardımı kimi göstərirdi. Amma əslində bu həm də əvəzsiz deyildi. Axı biz bunun əvəzini daha əvvəl - 44 günlük savaşın qələbəsindən sonra türk liderinin, Tura qurucusunun bizim Ali Baş Komandanımızla birlikdə Şuşada əzəmətlə dünyaya heç vaxt pozulmayacaq həqiqətlərdən danışarkən görmüşdük. Sözümün canı odur ki, Ərdoğana Azərbaycan sevgisi böyük tarixi həqiqətlərə söykənir. Biz hər tərəfdən üzərimizə yeriyən böhtan və iftiralara, ən başlıcası, hədələrə qarşı türk liderinin səfərbəredici gücünü gördük. Bu, zaman-zamanAzərbaycan xalqının yaddaşında yaşayacaq elə tarixi faktlardır ki, gələcəyin heç bir dumanı onun üstünü örtə bilməz.

Çünki bunun üçün qalib Şuşa var. Azad olunmuş Azərbaycan torpaqları var. Məkrli İran siyasəti məhz Ərdoğanın qətiyyəti sayəsində iflasa uğradı. Bütün bunları biz sözün həqiqi mənasında az qala, əlçatmaz poetik duyğularla əsərdəki təsvirlərdən də görürük.

*Sultanım, Şuşa sənə qucaq açdı sevindi,*
*Qarabağda hər ürək sənin doğma evindi..*

*Unudulmaz Şuşada qətiyyətli çıxışın,*
*Şimşək olub parlayır yaddaşlarda çaxışın...*

*Şuşadakı çıxışın zamanın dərs şilləsi,*
*Yağılara vurduğun tarixin tərs silləsi...*

*Yağılar da görürdü zirvədən baxmağını,*
*Alovlu sözlərinlə yandırıb yaxmağını...*

*Azərbaycan lideri sənə sevgi göndərir,*
*Bizim dönməz eşqimiz zülmət yarır, gün dərir.*

Bütün oxuculara deyilə biləcək həqiqəti biz poemadan gətirdiyimiz axırıncı misrada bütün emosionallığı ilə görə bilərik. Çünki biz burada Azərbaycan liderinin səsini də, duyğusunu da sözün ahəngi ilə varlığımıza çəkirik. Əgər Azərbaycan lideri öz danışığı ilə, səsi ilə beynəlxalq tribunalardan sevgisini göndərə bilirsə, onda bizim dönməz eşqimiz müəllifin dediyi kimi zülmət yarar, gün dərər. Çox poetik, çox emosional ifadələrdir və bizi də qanadlandıran ifadələrdir. Yəqin ki, sözümüzün davamında bu duyğuları, bu hissləri hələ qədərincə açmaq imkanımız olacaq.

***(Davamı var)***